Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Bakıya "Dünya İdman Paytaxtı" titulu verilib... Monakodan sonra Bakı...

## Uşaq və gənclərin fiziki və mənəvi inkişafı

**Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyasının Bakını 2026-cı il üçün dünyanın "İdman paytaxtı" seçməsi şübhəsiz ki, təsadüfi xarakter daşımayıb. Bu ölkəmizdə idmana göstərilən yüksək diqqət və qayğının konkret təzahürünün nəticəsi də hesab edilə bilər. Beləliklə, "Dünya İdman Paytaxtı" titulu rəsmi olaraq Monakodan Bakıya təhvil verilib. Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyası Brüsseldə yerləşən qeyri-kommersiya assosiasiyasıdır və hər il müxtəlif qitələrdən şəhərlərə "İdman Paytaxtı" və digər idman sahəsi üzrə mükafatlar təqdim edir.**



Bu titul və mükafatlar etik prinsiplər əsasında verilir və cəmiyyətin sosial inteqrasiyası, psixofiziki rifahı və həyat keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyası, həmçinin Avropa Komissiyasının Avropa İdman Həftəsinin və UNESCO-nun tərəfdaşıdır.

### İdman siyasəti eyni zamanda gənclərin mənəvi tərbiyəsində mühüm rol oynayır

Məsələ ilə bağlı Gənclər və İdman Nazirliyinin İdman şöbəsinin müdiri Elnur Məmmədov qeyd edir ki, 2026-cı ildə Azərbaycanda bir çox beynəlxalq tədbirlərin keçiriləcək: "Buna görə idman federasiyalarına təşəkkür edirik. Onlar beynəlxalq qurumlarla əlaqə yaradaraq, ölkəmizdə vacib tədbirlərin təşkilinə kömək edirlər".

Milli Məclisin deputat Müşviq Cəfərov bildirir ki, Bakının "Dünya İdman Paytaxtı" seçilməsi prosesinə uzun zaman əvvəl başlanılmışdı. O, 2026-cı ili Azərbaycan idmanı üçün uğurlu olacağına inandığını bildirib: "Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyasının nümayəndə heyəti Bakıdakı idman infrastrukturunu yüksək qiymətləndirdi. Məhz bundan sonra Bakıya 2026-cı il üçün "Dünyanın İdman Paytaxtı" adı verildi. Düşünürəm ki, beynəlxalq tədbirlərin təşkili insanlar arasında idmana marağı artıracaq". Bütün bunlar uşaq və gənclərin də idmana marağının artmasına təsirsiz ötüşmür. Ümumiyyətlə, Azərbaycanda idman siyasəti dövlətin gənclər siyasətinin ayrılmaz tərkib hissəsi kimi formalaşıb və gənc nəslin fiziki, mənəvi və sosial inkişafında mühüm rol oynayır. Müstəqillik illərindən etibarən idmanın inkişafı dövlət səviyyəsində prioritet istiqamətlərdən birinə çevrilib, bu sahəyə kompleks və sistemli yanaşma tətbiq olunub. İdman siyasətinin əsas məqsədi sağlam, vətənpərvər, intizamlı və fəal gənclərin yetişdirilməsidir. Son illərdə ölkədə müasir idman infrastrukturu geniş şəkildə qurulub. Paytaxt Bakı ilə yanaşı regionlarda da olimpiya idman kompleksləri, stadionlar, üzgüçülük hovuzları və idman zalları istifadəyə verilib. Bu infrastruktur gənclərin idmana cəlb olunmasını asanlaşdırır, onların asudə vaxtlarını səmərəli keçirmələrinə şərait yaradır. Xüsusilə regionlarda idman obyektlərinin yaradılması gənclər arasında bərabər imkanların təmin olunmasına mühüm töhfə verir. Dövlət tərəfindən idmana göstərilən diqqət gənclərin sağlam həyat tərzinə marağını artırır. Müntəzəm fiziki fəaliyyət gənclərin fiziki sağlamlığını möhkəmləndirir, zərərli vərdişlərdən uzaq durmalarına kömək edir. İdmanla məşğul olan gənclərdə stressə davamlılıq, özünə inam və psixoloji balans daha güclü olur. Bu amillər onların həm təhsil həyatında, həm də sosial münasibətlərində uğurlu olmalarına şərait yaradır. Azərbaycanda idman siyasəti eyni zamanda gənclərin mənəvi tərbiyəsində mühüm rol oynayır. İdman intizam, məsuliyyət, komanda ruhu və rəqabət mədəniyyəti kimi keyfiyyətlərin formalaşmasına kömək edir. Gənclər idman vasitəsilə dürüst mübarizə, qaydalara hörmət və əzm kimi dəyərləri mənimsəyirlər. Bu keyfiyyətlər onların gələcəkdə cəmiyyətin fəal və məsuliyyətli üzvləri kimi yetişməsində mühüm əhəmiyyət kəsb edir.

### Bakı hər zaman keyfiyyətli idman obyektləri ilə seçilib

Beynəlxalq idman yarışlarının Azərbaycanda keçirilməsi gənclərin dünyagörüşünün genişlənməsinə müsbət təsir göstərir. Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları və digər beynəlxalq turnirlər gənclərin qlobal idman mühitini yaxından tanımasına imkan yaradıb. Bu yarışlar gənclərdə milli qürur hissini gücləndirir, ölkəni beynəlxalq arenada təmsil edən idmançılara nümunə kimi baxmalarına səbəb olur. Bakıya 2026-cı il üçün "Dünyanın İdman Paytaxtı" adı verilməsi, bu fonda gözlənilən yarışlar gənclərin idmana maraq və diqqətini daha da artıracaq. Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyasının prezidenti Can Fransisko Lupattelli isə Bakının idmanın inkişafına daim yol açdığını vurğulayıb. O qeyd edib ki, bu şəhər hər zaman keyfiyyətli idman obyektləri ilə seçilib. Həqiqətən də ölkəmizin, o cümlədən Bakının Yay Olimpiya Oyunlarından sonra ən böyük beynəlxalq idman tədbirinə - I Avropa Oyunlarına layiqincə evsahibliyi bu mötəbər yarışın yüksək statusunu müəyyən etdi. Eyni zamanda, multiidman yarışı olan İslam Həmrəyliyi Oyunları, həmçinin Formula 1 Azərbaycan Qran-prisi, dünya, Avropa çempionatları, digər irimiqyaslı idman tədbirləri şəhərimizin nə qədər geniş imkanlara, zəngin infrastruktura malik olduğunu göstərdi.

Bunlar fonunda ölkəmizdə idman siyasətinin mühüm istiqamətlərindən biri də gənc istedadların aşkar olunması və dəstəklənməsidir. Uşaq-gənclər idman məktəbləri, federasiyalar və idman klubları vasitəsilə istedadlı gənclər erkən yaşlardan müəyyən edilir və onların peşəkar inkişafı üçün şərait yaradılır. Dövlət tərəfindən göstərilən maddi və mənəvi dəstək gənclərin idman karyerası qurmasına stimul verir. Bununla yanaşı, idman siyasəti gənclərin sosial inteqrasiyasına da müsbət təsir göstərir. Müxtəlif sosial təbəqələrdən olan gənclər idman meydanlarında bir araya gəlir, bu isə sosial bərabərliyi və qarşılıqlı anlayışı gücləndirir. İdman həmçinin gənclərin asudə vaxtının səmərəli təşkili baxımından mühüm vasitədir və onları neqativ təsirlərdən qoruyur. Ümumiyyətlə, Azərbaycanda həyata keçirilən idman siyasəti gənclərin hərtərəfli inkişafına xidmət edən mühüm dövlət strategiyasıdır. Fiziki sağlamlıq, mənəvi tərbiyə, sosial fəallıq və vətənpərvərlik ruhunun formalaşması bu siyasətin əsas nəticələrindəndir. Mövcud idman infrastrukturu və dövlət dəstəyi gələcəkdə də gənclərin idmana marağının artacağını və Azərbaycanın idman sahəsində uğurlarının davamlı olacağını göstərir.

***Tahir TAĞIYEV***

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.*